# Prezident İlham Əliyev Kəlbəcər şəhərində inzibati binanın təməlini qoyub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Kəlbəcər şəhərində inzibati binanın təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, inzibati binanın inşası üçün 2,4 hektardan çox ərazi nəzərdə tutulub. Bu ərazi Kəlbəcərin ictimai mərkəzi ilə şəhər parkının arasında yerləşir. İnzibati binanın yerləşdiyi ərazinin şimal hissəsi pilləli landşaft elementləri və şəhər parkının relyefi ilə birləşir. Ümumilikdə Baş plan üzrə şəhərin inzibati mərkəzində 2 inzibati binanın inşası



nəzərdə tutulub. Hər iki bina müasir üslubda layihələndirilib. Tikinti işlərinə 2025-ci ildə başlanılması planlaşdırılır.

Dövlətimizin başçısı inzibati binanın təməlini qoydu.

Azərbaycan.- 2024.- 3 sentyabr, № 190.- S.3.